AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

30 iyun 2016-cı il № 37-40 (9043) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### ORDUMUZA GÜVƏNİRİK!

**İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 98-ci ildönümü tamam oldu.**

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır.

Səh. 3

### "Türk axını" layihəsi üzrə Türkiyə ilə danışıqların yenidən başlanması üçün dialoqa hazırıq"

**Rusiyanın enerji nəhəngi "Gazprom" şirkəti "Türk axını" qaz boru kəməri (Turkish Stream) layihəsi üzrə Türkiyə tərəfi ilə danışıqların yenidən başlanması üçün dialoqa hazırdır.**

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə "Gazprom"un rəsmi nümayəndəsi Sergey Kupriyanov deyib. O bildirib ki, "Gazprom" "Türk axını" layihəsi üzrə dialoqa hər zaman açıq olub.

Səh. 4

### BEYNƏLXALQ TRANSXƏZƏR NƏQLİYYAT MARŞRUTUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Çində Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun inkişaf perspektivləri müzakirə olunub.***

"Müzakirələr Çin Xalq Respublikasının Şanxay şəhərində Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun inkişaf perspektivlərinə həsr olunmuş "dəyirmi masa"da aparılıb.

Səh. 5

### RUSİYA XƏZƏR NEFTİNİN MÜHÜM TRANZİT KANALINI İTİRƏ BİLƏR

***"Transneft": "Sənaye təhlükəsizliyi tələblərinin pozulması faktlarına görə 11 inzibati işin başlanmasına baxmayaraq, vəziyyət daha pisləşib".***

Rusiyanın "Transneft" şirkəti kriminal vəziyyətlə əlaqədar Mahaçqala-Novorossiysk marşrutu ilə nəql olunan neftin həcminin azaldığını və Mahaçqala limanındakı "Daqnefteprodukt" terminalına boşaldılan zaman neftin həcmində itkilərin qeydə alındığını bildirib.

Səh. 6

### AZƏRBAYCAN FORMULA-1 AVROPA QRAN-PRİSİNİN TARİXİNƏ ÖZÜNƏMƏXSUS PARLAQ SƏHİFƏ YAZDI

***Azərbaycan son illər iri miqyaslı tədbirlərə, o cümlədən mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edir. Artıq dünyada idman ölkəsi kimi tanınan Azərbaycan "Bakı-2015" ilk Avropa Oyunlarının əla təşkili ilə diqqəti bir daha özünə yönəltdi. Bütün bunlar dövlətimizin uğurlu idman siyasətindən xəbər verir. Avropa və dünya çempionatları, irimiqyaslı yarışlar mükəmməl təşkilatçılıq, yerli idmançıların beynəlxalq arenada uğurlu çıxışı ölkəmizdə idmana göstərilən dövlət qayğısının bariz nümunəsidir.***

Səh. 8



### Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Mahmudov Əmir Hüseyn oğlu
Talıbov Nurməhəmməd Şixməhəmməd oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2016-cı il.*

### Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Axundov Muxtar Bəhrəm oğlu
Ərəbov Nazim Yaqub oğlu
Kazımov Soltan Ağaqulu oğlu
Novruzov Şamil Nəcəf oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2016-cı il.*

### Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayev Şaiq Bəhram oğlu
Behbudov Ağalar Mürşüd oğlu
Əliyev Azər Əhməd oğlu
Fərəcli Cəlal Həsənağa oğlu
Xamoyev İsaməddin İslam oğlu
İsmayılov Elvin Fərman oğlu
Qurbanov Fuad Hacı oğlu
Məmmədov Adil Əhməd oğlu
Mirqulamov Rəfail Mirdadaş oğlu
Mirzəyev Seymur Əmirxan oğlu
Panəliyev Rza Talıb oğlu
Rəfiyev Azər Kamil oğlu
Rəsulov Nazim Nadir oğlu
Sadıqov İlyas Əlixan oğlu
Şahbazi Samir Faiq oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2016-cı il.*

### 25 iyun "Dənizçi günü" idi

# DƏNİZ NƏQLİYYATI İŞÇİLƏRİ PEŞƏ BAYRAMLARINI QEYD ETDİLƏR

***O gün dəniz nəqliyyatı işçilərinin üz-gözlərindəki sevinc özgə bir sevinc idi. Qürurdan, iftixardan doğan sevinc! Taleyini dəniz nəqliyyatı ilə bağlayanların şərəfli peşə sahibləri olduqları üçün keçirdikləri qanuni iftixar hissini ilk baxışdan da hiss etmək çətin deyildi.***









Hər birinin sevinməyə haqqı vardı o gün. Fırtınalar qoynunda müntəzəm səfərlərə çıxan dənizçilərin də, ləngərli gəmilərin ömrünə ömür calayan gəmi təmirçilərinin də, dəniz nəqliyyatı ilə bağlı digər müəssisə və təşkilatlarda çalışanların da... O gün onların peşə bayramı - möhtərəm Prezidentimiz İlham Əliyevin 19 iyun 2014-cü il tarixli Sərəncamı ilə təsis edilən "Dənizçi günü" idi.

Ölkə başçısının peşə bayramı ərəfəsində - 2016-cı il iyunun 24-də imzaladığı Sərəncamlar isə onların bayram sevincinə özgə bir sevinc qatmışdı. Dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə 15 nəfər "Tərəqqi" medalı ilə təltif edilmiş, 2 nəfər "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş, 4 nəfərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdi.

"Dənizçi günü"nə həsr olunmuş təntənəli mərasimdən əvvəl Dövlət Dəniz Administrasiyasının və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin kollektivləri iyunun 25-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoydular.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anıldı, məzarı üzərinə tər çiçəklər düzüldü.

Sonra Şəhidlər xiyabanına gələn ziyarətçilər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının, o cümlədən dənizçilərin xatirəsini ehtiramla yad etdilər, məzarlar üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydular.

Həmin gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Təlim-Tədris Mərkəzində yeni dinamik mövqeləşdirmə (DP2) trenajorunun istifadəyə verilməsi mərasimi də keçirildi. Mərasimdə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev iştirak etdilər.

*(Ardı 2-ci səhifədə)*

# 25 İYUN "DƏNİZÇİ GÜNÜ" İDİ

## *"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dənizçiləri peşə bayramı münasibətilə təbrik edib. Təbrikdə deyilir:*

*Hörmətli həmkarlar!*

Sizi "Dənizçi günü" peşə bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, müstəqil Azərbaycanımızın tərəqqisi naminə çətin və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq Sərəncamları ilə 25 iyun - "Dənizçi günü" peşə bayramının təsis edilməsi də, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaranandan sonra hər il peşə bayramı ərəfəsində bir qrup dəniz nəqliyyatı işçisinin Vətənin yüksək mükafatları ilə təltif olunması da sizin fədakar əməyinizin həm də dövlət tərəfindən layiqincə qiymətləndirilməsinin bariz nümunəsidir.

Ölkə başçısının 2016-cı il iyunun 24-də imzaladığı Sərəncamlarla dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə Gəmiçiliyin 9 işçisi "Tərəqqi" medalı ilə təltif edilmiş, 1 nəfər "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş, 2 nəfərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir. Bayram sevincimizə sevinc qatan bu Sərəncamları Gəmiçiliyin bütün kollektivinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndiririk.

Bayramdan ötən bir il kollektivimizin bütün üzvlərinin eyni məqsəd uğrunda çalışması sayəsində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün uğurlu oldu. AXDG-nin Xəzərdə aparıcı mövqeyi möhkəmləndirildi, Xəzərdənkənar fəaliyyətinin genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Donanmalarmız dövlətin dəstəyi ilə yanaşı, həm də daxili imkanlarımız hesabına alınan və daha geniş texniki imkanlara malik yeni gəmilərlə zənginləşdirildi.

Bildiyiniz kimi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin xarici sularda fəaliyyəti məhz Cəmiyyət yaranandan sonra, 2014-cü ildə "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə bərpa olunub, 2015-ci ildən nəqliyyat donanmamızın "Qaradağ", "Teymur Əhmədov" və "Maestro Niyazi" gəmiləri də Qara və Aralıq dənizlərində üzür.

Cari ilin aprelində yeni gəmilərin sevincini yaşadıq.Rusiyada inşa edilən və dedveyti 5490 ton olan "Rəsul Rza", "Şair Vaqif", "Şair Sabir", "Hüseyn Cavid", "General Aslanov", "Qafur Məmmədov" quru yük gəmiləri artıq Qara dəniz, Aralıq dənizi və digər hövzələrdə yükdaşıma əməliyyatlarına cəlb edilib. Yeni alınan bu teploxodların hesabına Xəzərdənkənar hövzələrdə işləyən gəmilərimizin sayı 11-ə çatdırılıb.

Aprelin 22-də isə Bakı Gəmiqayırma Zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa edilən 3 ədəd 80 nəfərlik sərnişin gəmisinin - "Üfüq", "Zəfər" və "Turan"ın istismara verilməsi mərasimi keçirildi. Mərasimdə dövlət başçımızın iştirakı bizə hədsiz sevinc bəxş etməklə yanaşı, həm də cavabdeh olduğumuz işlər üçün məsuliyyət hissimizi qat-qat artırdı.

Əminəm ki, müstəqil Azərbaycanı qətiyyətlə daha xoşbəxt gələcəyə aparan dövlət başçımızın hər sahədə mütərəqqi siyasətini dəstəklədiyinizi bundan sonra da əməli işinizlə sübut edəcək, müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaq, yük daşınmasında, Xəzərdə neft və qaz istehsalında yüksək dəniz nəqliyyatı xidmətləri göstərilməsində çiyninizə düşən vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Sizə aydın səma, uğurlu səfərlər arzulayıram.

***Bayramınız mübarək!***

# DƏNİZ NƏQLİYYATI İŞÇİLƏRİ PEŞƏ BAYRAMLARINI QEYD ETDİLƏR

***(Əvvəli 1-ci səhifədə)***

Dinamik mövqeləşdirmə sistemi gəminin hərəkətvericilərindən aktiv istifadə edərək, onun mövqeyini və kursunu avtomatik rejimdə tam nəzarət altında saxlamağa imkan verir. DP-2 trenajoru dəniz əməliyyatlarında iştirak edən gəmi sürücülərinin hazırlanmasında çox böyük rola malikdir. Bu simulyator dənizçilərə yüksək səviyyəli təlim keçməyə imkan verəcək.

Daha sonra tədbir iştirakçıları Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inzibati binasında yeni yaradılmış muzey ekspozisiyası ilə tanış oldular. Muzeydə nümayiş etdirilən fotoşəkillər Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat və neft donanmalarının zənginləşməsi üçün Ümummilli Liderimiz Heydər Əliyevin danılmaz xidmətlərindən, eləcə də Ulu Öndərin layiqli davamçısı, möhtərəm Prezitentimiz İlham Əliyevin dəniz nəqliyyatına qayğı və diqqətindən bəhs edir. Ekspozisiyada həmçinin Azərbaycanda gəmiçiliyin tarixi və inkişafı, həyatını dənizlə bağlayan insanlar haqqında materiallar təqdim olunur. Bu materialları daha geniş formatda muzeydə quraşdırılmış müasir informasiya texnologiyaları avadanlığı vasitəsilə də izləmək mümkündür.

Daha sonra dənizçilərin peşə bayramı münasibətilə Gəmiçiliyin akt zalında tədbir keçirildi. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov dənizçiləri peşə bayramları münasibətilə təbrik etdi, son illər dəniz nəqliyyatında əldə olunan uğurlardan, həyata keçirilən tədbirlərdən söz açdı. Qeyd etdi ki, Ümummilli Lider bu çətin və şərəfli peşə sahiblərinə daim diqqət və qaygısını əsirgəməyib. Dahi Öndərimizin başladığı işləri onun siyasi varisi, Prezident İlham Əliyev layiqincə davam etdirir. Bu gün dəniz nəqliyyatı dövlətin xüsusi diqqətində olan prioritet sahələrdəndir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev geniş məruzə ilə çıxış edərək, son illərdə aparılan islahatlardan, görülən işlərdən danışdı. Bildirdi ki, Gəmiçiliyin rəhbərliyi qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün Xəzərdə və Xəzərdənkənar hövzələrdə rəqabətədavamlı və beynəlxalq standartlara uyğun





















dəniz xidmətləri göstərən nüfuzlu və çevik gəmiçilik şirkəti qurmaq, kommersiya baxımından səmərəli fəaliyyəti təmin etmək, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsinə əhəmiyyətli töhfə vermək, gəmiçilik sahəsində yüksəkixtisaslı yerli kadrların formalaşmasına nail olmaq əzmindədir. Bu istiqamətdə artıq xeyli iş görülüb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaradıldığı gündən köklü islahatlar və struktur dəyişiklikləri aparılıb, maliyyə hesabatlarının hazırlanması üzrə beynəlxalq standartlara uyğun qaydada, Gəmiçilikdə SAP sisteminin modulları tətbiq edilib, Mərkəzi Dispetçer Sistemi, Elektron Təchizat Sistemi, Vahid korporativ kompyuter şəbəkəsi yaradılıb. Eyni zamanda, gəmilərin sahillə rabitəsinin optimallaşdırılması üçün tədbirlər görülüb, gəmilərdə elektron xəritələr tətbiq olunub.Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq miqyasda tanınmış şirkətlərlə daimi əməkdaşlıq edir. Belə ki, KSƏTƏMM (Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi) idarəetmə sistemi Amerika Gəmiçilik Bürosu (ABS) tərəfindən audit olunub, nəticədə Gəmiçiliyə və onun gəmilərinə İSO-9001, İSO-14001, OHSAS-18001 və İSO-50001 üzrə 5 illik sertifikatlar, Azərbaycan Dövlət Dəniz Akademiyasına isə Keyfiyyətin idarə edilməsi sistemi (İSO 9001:2008) üzrə 3 illik sertifikat təqdim edilib.

"Ernst & Young" şirkəti beynəlxalq standartlara uyğun hazırlanmış maliyyə hesabatlarının və Davamlı inkişaf haqqında hesabatın auditini həyata keçirərək müsbət rəy verib, "Fitch Rating" şirkəti ilə Gəmiçiliyə kredit reytinqinin alınmasına dair əməkdaşlıq sahəsində uğurlu iş aparılıb.

Rauf Vəliyev Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində Gənclər və kadr siyasətindən, AXDG-nin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılması istiqamətində atılan addımlardan, Xəzərdənkənar fəaliyyətin bərpası və donanmaların yenilənməsindən ətraflı söhbət açdı, qarşıda daha əhəmiyyətli vəzifələrin durduğunu vurğuladı. Qeyd etdi ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilk növbədə dəniz nəqliyyatına dövlətimizin dəstəyinə, xüsusilə də möhtərəm Prezidentimiz İlham Əliyevin daimi diqqətinə güvənir. Son dövrdə imzalanmış Fərman və Sərəncamlar strateji əhəmiyyət daşıyır. Belə ki, Xəzər Dəniz Gəmiçiliyinin inkişaf istiqamətlərinin müəyyən edilməsi, 2016-2020-ci illərdə Azərbaycan Respublikasında gəmiçiliyin inkişafına dair Dövlət Proqramının hazırlanması ölkə rəhbərliyinin diqqət mərkəzində olmaqla yanaşı, Gəmiçilik qarşısında qlobal vəzifələr qoyur. Bu gün Xəzər regionunda bir sıra irimiqyaslı beynəlxalq layihələr həyata keçirilir. Şərq-Qərb, eləcə də Şimal-Cənub istiqamətlərində nəqliyyat dəhlizlərinin inkişafına yönəlmiş bu layihələr – Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycanla İran arasında dəmir yolu xəttinin tikintisi, Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin yekunlaşdırılması, Azərbaycanın «Viking» layihəsinə qoşulması Gəmiçilik üçün yeni hədəflər müəyyənləşdirir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi qarşıda duran bütün məqsədlərə nail olmaq və yeni uğurlara imza atmaq üçün tam gücü ilə çalışır.

Çıxışının sonunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bir daha dənizçiləri peşə bayramı münasibətilə təbrik etdi, onlara işlərində uğurlar arzuladı.

Mərasimdə "Rusiya Dəniz Registri Azərbaycanda" QSC-nin sədri Şaban Quliyev və başqaları son illərdə dəniz nəqliyyatının inkişafında müşahidə edilən müsbət dəyişikliklərdən və müasir tendensiyalardan danışdılar.

Əməkdə fərqlənənlərə "Dənizçi günü" münasibəti ilə "Dəniz Donanmasının fəxri işçisi" döş nişanları təqdim olundu.

Sonda tədbir iştirakçılarına Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyəti və inkişafı haqqında korporativ film nümayiş etdirildi.

***"DƏNİZ"***

## TƏBRİK EDİRİK!

**SƏMƏRƏLİ ƏMƏK FƏALİYYƏTLƏRİNƏ GÖRƏ VƏ "DƏNİZÇİ GÜNÜ" PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ AŞAĞIDAKI ŞƏXSLƏR AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ RƏİSİ QÜDRƏT QURBANOVUN ƏMRİ İLƏ "DONANMANIN FƏXRİ İŞÇİSİ" DÖŞ NİŞANI İLƏ TƏLTİF EDİLMİŞLƏR**

**Dəmirov Rövşən Əskər oğlu** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Donanmanın təhlükəsiz üzmə departamenti rəisinin müavini

**İmanov Daməd Bahadur oğlu** – Xəzər Dəniz Neft Donanması rəisinin birinci müavini

**Hüseynov Səfərəli Bəhruz oğlu** – "MPK-452" gəmisinin böyük mexaniki

**Babalıyev Rövşən Babalı oğlu** – "Natəvan" gəmisinin bosmanı

**İsmixanov Əhmədxan Günəş oğlu** – İstehsalat Xidmətləri İdarəsi Əsaslı təmir sahəsinin rəisi

**İmanov Süleyman Həmzə oğlu** – "Bibiheybət" Gəmi Təmiri Zavodu Elektrik-quraşdırma bölməsinin gəmi elektrik quraşdırıcısı

**Mikayılov Rəfail Qərib oğlu** – "Zığ" Gəmi Təmiri Zavodunun direktoru

**Əliyev Çingiz Mansur oğlu** - Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru

## TƏBRİK EDİRİK!

***Səmərəli əmək fəaliyyətlərinə görə və "Dənizçi günü" peşə bayramı münasibətilə aşağıdakı şəxslər Cəmiyyətin sədri Rauf Vəliyevin əmri ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Fəxri fərmanı ilə təltif edilmişlər:***

**Əzizli Ələkbər Əziz oğlu** - KSƏTƏMM departamentinin rəisi

**Nağıyev Zaur Rəsul oğlu** - Hüquq departamentinin rəisi

**Mirzəyev Tariyel Taleh oğlu** - Strateji inkişaf və investisiya layihələri departamentinin rəisi

**Həsənov Fəxrəddin Müşravan oğlu** - Maliyyə və uçot departamentinin rəisi

**Məmmədova Sevda Tahir qızı** - İnsan resurslarının idarəedilməsi departamentinin rəisi

**Məmmədov Ceyhun Fikrət oğlu** – İnsan resurslarının idarəedilməsi departamentinin təlim və inkişaf üzrə aparıcı mütəxəssisi

**Manafov Emil Məmmədniyaz oğlu** – İnsan resurslarının idarəedilməsi departamentinin təlim üzrə koordinatoru

**Allahverdiyev Vüqar Yunus oğlu** – Təchizat departamenti rəisinin müavini

**Həmidov Nurlan Sezmi oğlu** – Təchizat departamenti rəisinin müavini

**Novruzova Aytən Vəliağa qızı** – Təchizat departamentinin mütəxəssisi

**Abdullayeva Sevda Nazim qızı** – İnzibati işlər və ictimaiyyətlə əlaqələr departamentinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi

**Teymurov Teymur Camalxan oğlu** – Audit departamentinin daxili auditori

**Bayramova Mənzərə Əzzağa qızı** – Maliyyə və uçot departamentinin mühasibi

**Əkbərova Şərqiyyə Sərxan qızı** – Maliyyə və uçot departamentinin iqtisadçısı

**Nəsirov Lətif Nəsir oğlu** – "AXDG" QSC-nin Türkmənistan Respublikasında nümayəndəsi

**Quliyev Yusif Arzu oğlu** – İnformasiya texnologiyaları departamentinin aparıcı mütəxəssisi

**Eminov Cavid Qaçaq oğlu** – Əsaslı tikinti və təmir şöbəsinin mütəxəssisi

**Əliyev Rəfael Muxtar oğlu** – İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin iqtisadçısı

**Rüstəmova Reyhan Abdulla qızı** – Risklərin idarə edilməsi və sığorta şöbəsinin mütəxəssisi

**Əliyev Yaşar Davud oğlu** – "Nefteqaz-64" gəmisinin böyük mexaniki

**Hüseynov Ağalar Ağacan oğlu** – "Lyütoqa"gəmisinin bosmanı

**Abbasov Şahin Zəfər oğlu** - "Nefteqaz-62" gəmisinin böyük motorçusu

**Xəlilov Vidadi Xəlil oğlu** - "V. Seyidov" gəmisi kapitanının böyük köməkçisi

**Ağayev Raqub Xanlar oğlu** - "E.Xalıqov" gəmisinin matrosu

**Şiriyev Nizami Şahverdi oğlu** – "Qaradağ" gəmisinin bosmanı

**Əmirov Faiq Adil oğlu** – "Şair Vaqif" gəmisinin kapitanı

**Tağıyev Tacir Yusif oğlu** – "Professor Əziz Əliyev" gəmisinin elektromexaniki

**Abdullayev Zahid Vahid oğlu** - "Qaradağ" gəmisinin bosmanı

**Seyidov Nəriman Rafiq oğlu** – "Şah İsmayıl Xətai" gəmisinin motorçusu

**Bəyəliyev Aydın Sədi oğlu** – İstehsalat Xidmətləri İdarəsi Nəqliyyat bölməsinin sürücüsü

**Qurbanov Qurban Lazım oğlu** – İstehsalat Xidmətləri İdarəsi Tikinti-quraşdırma bölməsinin rəisi

**Hüseynov Sabir Həsən oğlu** – İstehsalat Xidmətləri İdarəsi Hərbiləşdirilmiş Mühafizə Xidmətinin rəisi

**Muradov Elşad Rəsul oğlu** – "Bibiheybət" Gəmi Təmiri Zavodu İstehsalat-dispetçer şöbəsinin iş icraçısı

**Bayramov Mahir Bayram oğlu** – "Bibiheybət" Gəmi Təmiri Zavodu Mexaniki-təmir bölməsinin gəmi-təmiri çilingəri

**İsgəndərova Raya İmaməli qızı** – "Zığ" Gəmi Təmiri Zavodu İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin iqtisadçısı

**Cəfərov Yaşar İsgəndər oğlu** – "Zığ" Gəmi Təmiri Zavodu Gövdə-qaynaq bölməsinin elektrik qaynaqçısı

**Abdullayev Oyrad Məmmədrəhim oğlu** –Xəzər Dəniz Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun baş mühəndisi

**Əbdülrəhmanov Qədir Ağa oğlu** – Azərbaycan Dövlət Dəniz Akademiyası Gəmi elektroavtomatika kafedrasının müdiri

**Nəsrullayeva Cəmilə Səttar qızı** – Mərkəzi Dənizçilər Xəstəxanasında xidməti otaqları yığışdıran

# ORDUMUZA GÜVƏNİRİK!

*"Bizim ərazi bütövlüyümüz pozulubdur. Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Biz çalışırıq və çalışacağıq ki, məsələni danışıqlar yolu ilə həll edək. Ancaq ... atəşkəs rejimi bağlanandan sonra aparılan danışıqlar heç bir nəticə vermir. Belə olan halda təbii ki, biz ordumuzun gücünə güvənməliyik. Məhz bu məqsədlə son illər ərzində mütəmadi qaydada ordu potensialının gücləndirilməsi üçün praktiki tədbirlər görülübdür. Bu gün bizim ordumuz bölgədə ən qüdrətli ordudur. Azərbaycanda istənilən vəzifəni icra etməyə qadir olan silahlı birləşmələr fəaliyyət göstərir və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün biz lazım olan halda hərbi gücdən də istifadə edə bilərik. Bu, bizim suveren hüququmuzdur. Beynəlxalq hüquq normaları da bizə bu imkanı verir".*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*





**İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 98-ci ildönümü tamam oldu.**

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi.

Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirilib. Qısa müddətdə Milli Ordu Osmanlı imperiyasının Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bilmişdi.

1920-ci ildə Azərbaycan sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Hərbi Nazirlik ləğv olundu, ordumuzun 15 generalı bolşeviklər tərəfindən güllələndi.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli qərarına əsasən, 26 iyun - Silahlı Qüvvələr Günü elan olundu. 2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə müasir Azərbaycan Ordusunun hərbi paradı keçirildi. Növbəti hərbi parad 2013-cü ildə Silahlı Qüvvələr Gününün yaranmasının 95 illiyinə həsr edildi.

Son illər ərzində Azərbaycan hərbi potensialını xeyli artırıb. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilib. Hazırda maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur. Ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı nəticəsində Silahlı Qüvvələrimiz son illər sürətlə inkişaf edir. Bu gün ordu quruculuğu dövlətimizin başçısının diqqət mərkəzindədir. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Apreldə baş verən hərbi əməliyyatlar dövlətimizin, Ordumuzun gücünü və qüdrətini düşmənə və bütün dünyaya nümayiş etdirdi. Düşmən təxribatlarının qarşısını almaq məqsədilə Silahlı Qüvvələrimizin bölmələrinin keçirdiyi əks-hücum əməliyyatı nəticəsində işğal altındakı mühüm əhəmiyyətə malik yüksəkliklər azad edildi. Bu döyüşlərdə zabit və əsgərlərimizin göstərdiyi rəşadət xalqımızın yaddaşında həkk olundu. Aprel hadisələri zamanı Silahlı Qüvvələrimizə ən yüksək qiyməti Ali Baş Komandan İlham Əliyev verdi.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi yaradılıb. Azərbaycanda min addan çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.



Son illər Azərbaycan Müdafiə Nazirliyinin beynəlxalq hərbi əlaqələri də genişlənib. Azərbaycan Ordusu beynəlxalq terrorizmə qarşı mübarizədə fəallıq göstərir. Ölkənin Sülhməramlı Qüvvələri Əfqanıstandakı koalisiya əməliyyatlarında iştirak edir.

Azərbaycan müdafiə sektoruna dövlət büdcəsindən yönəltdiyi vəsaitin həcminə görə Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrini bir neçə dəfə üstələyir. Ötən dövrdə əsas diqqət ordunun maddi-texniki təchizatının yenilənməsi, infrastrukturun yaradılması, hərbçilərin məvaciblərinin artırılması, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə yönəldilib. Bu gün dövlət qayğısı ilə hərtərəfli əhatə olunmuş Silahlı Qüvvələrimiz əldə edilmiş nailiyyətlərlə kifayətlənmir, torpaqlarımızın ərazi bütövlüyünü və müstəqil dövlətçiliyimizi qorumağa qadir olan bütün imkanları səfərbər edir.



## Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər hövzəsində Sosial Korporativ Məsuliyyəti üzrə fəaliyyətinə dair Davamlı İnkişaf haqqında Hesabatını açıqlayan ilk gəmiçilik şirkətidir

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Davamlı İnkişaf haqqında Hesabatı "Ernst & Young" şirkəti tərəfindən müstəqil auditdən keçərək, müsbət rəy alınmışdır. Gəmiçiliyin 2014-2015-ci illərdə iqtisadi, sosial və ekoloji sahələrdə fəaliyyətinin nəticələrini tam şəffaf açıqlayan Hesabatda keyfiyyət, sağlamlıq, ətraf mühitin qorunması, əməyin mühafizəsi, kadrların idarə edilməsi və digər sosial sahələrdə yerinə yetirilmiş işlər və əldə olunmuş nailiyyətlər öz əksini tapmışdır. AXDG-nin Davamlı İnkişaf haqqında Hesabatı Beynəlxalq Qlobal Hesabatlılıq Təşəbbüsünün GRI Sisteminin logistika və nəqliyyat xidmətlərinə dair mövcud tələbləri nəzərə alınaraq hazırlanmışdır. Bu proses 2015-ci ilin noyabrından başlanmış və sənəd 2016-cı ilin əvvəlində dünyanın ən nüfuzlu beynəlxalq audit şirkətlərindən olan "Ernst & Young"a təqdim edilmişdir.***

Davamlı İnkişaf haqqında Hesabatda yer almış hər bir məsələ daim Gəmiçilik rəhbərliyinin diqqət mərkəzindədir. Bu barədə geniş izah və şərhlər müvafiq bölmələrdə öz əksini tapmışdır.

Beynəlxalq iqtisadiyyatda müşahidə edilən qlobal çətinliklər, onların iqtisadi fəaliyyətə təsiri fonunda davamlı inkişafın təmin olunması, iqtisadi, sosial və ekoloji sahələrdə qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması AXDG üçün uğurlu fəaliyyətin başlıca meyarıdır. Bu istiqamətdə Davamlı İnkişaf haqqında Hesabatın hazırlanması, onun müstəqil beynəlxalq auditinin keçirilərək dərc edilməsi müstəsna əhəmiyyətə malikdir və bundan sonra da Gəmiçiliyin fəaliyyətində şəffaflığın təmin edilməsinə xidmət edəcəkdir.

Qeyd edək ki, bu, AXDG-nin Davamlı İnkişaf sahəsində ilk hesabatıdır. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər hövzəsində Sosial Korporativ Məsuliyyəti üzrə fəaliyyətinə dair Davamlı İnkişaf haqqında Hesabatını açıqlayan ilk gəmiçilik şirkətidir.




## "Türk axını" layihəsi üzrə Türkiyə ilə danışıqların yenidən başlanması üçün dialoqa hazırıq"



**Rusiyanın enerji nəhəngi "Gazprom" şirkəti "Türk axını" qaz boru kəməri (Turkish Stream) layihəsi üzrə Türkiyə tərəfi ilə danışıqların yenidən başlanması üçün dialoqa hazırdır.**

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə "Gazprom"un rəsmi nümayəndəsi Sergey Kupriyanov deyib. O bildirib ki, "Gazprom" "Türk axını" layihəsi üzrə dialoqa hər zaman açıq olub.

Qeyd edək ki, iyunun 27-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinə məktub göndərib. Məktubda Türkiyə ilə Rusiya arasında ənənəvi dostluq əlaqələrinin bərpa olunması, regiondakı böhranların həlli ilə bağlı əməkdaşlıq və terrorçuluqla birgə mübarizə aparılmasının vacibliyinə dair vacib məqamlar əks olunub.

Xatırladaq ki, ötən ilin noyabrında Rusiyaya məxsus "Su-24" tipli döyüş təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra "Gazprom"un idarə heyətinin sədri Aleksey Miller "Türk axını" layihəsi ilə bağlı Türkiyə ilə danışıqların dayandırıldığını demişdi. "Gazprom" "Türk axını" kəmərinin ötürücülük qabiliyyətini iki dəfəyədək azaldaraq kəmərlə 32 milyard kubmetr təbii qazın nəql olunmasına da qərar vermişdi.

"Türk axını" ilə Rusiya qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulurdu. Kəmərlə 16 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılırdı. Layihə üzrə iki boru kəmərinin tikilməsi nəzərdə tutulurdu.

# O illərdə "Dəniz" nədən yazırdı

### Qəzetimizin siqnalı ilə

"PARİS QOMMUNASI" zavodu ağac yonucular sex firqə özəyində olan intizamsızlıqlar haqqında "Qaspi bolşeviki" qəzetində 23 noyabrda yazılan məqalə bu sex özəyində böyük dönüş əmələ gətirmişdir. Ağac yonucular sexinin firqə özəyi siyasi dərs dərnəyində "Qaspi bolşeviki"nin siqnalı müzakirə olunmuşdur. Həmin məqalə özəkdə firqə qanunlarına və intizama tabe olmayan Rışkov, Nikitin, Roqovun barəsində yazılmış faktlar təhlil olunmuşdur.

Qəzetin bu faktları üzərində firqə üzvləri çıxışda bulunaraq, firqə intizamına qarşı özlərini doğrulda bilmədiklərini qeyd etmişlər.

Rışkov sex tərəfindən Lökbatana göndərilərkən oraya getməkdən boyun qaçırması firqə bürosuna verilmişdir. Nikitin və Roqov 3 ay üzvlük haqlarını verməmələri barəsində məsələlər dərnəkdə həll edildikdə səhvlərini boyunlarına almışlar və o gündən etibarən bunlar özlərinə qəti olaraq bolşevikcəsinə söz vermişlər ki, bir ay belə olsun üzvlük haqlarını saxlamayacaqlar, eyni zamanda siyasi dərslərdə müntəzəm iştirak edəcəklər və bitərəf işçi kütləsinin firqə siyasi dərs dərnəyinə cəlb olunması yolunda ciddi çalışacaqlar.

*"Qaspi bolşeviki" qəzeti,*
*8 dekabr 1932-ci il, № 155*

### Qajuqov və Dunini məsuliyyətə

Bizim "Qristyanin" gəmisində mexanik Qajuqov və onun 1-ci müavini Duninin səhlənkarlığı nəticəsində prostoy saatları artır. Beləki, motorist hərəkətedici sağ silindir podşivnikinin qızdığını mexanik müavini Duninə xəbər verir, Dunin isə silindirin hərəkətini azaltmaqla kifayətlənir.

Bu növ ilə gəmi 2 reys hərəkət etdikdən sonra 3-cü reysdə (sentyabrın 19-da) silindirin hərəkət etməməsindən 3 saat 15 dəqiqə dayanır və bunun səbəblərini araşdırır.

Yenə sentyabrın 20-də 2-ci dəfə hərəkətedici sol silindirin podşivniki yanır. Bunun da səbəbini öyrənmək üçün gəmi 3 saat dayanır. 3-cü dəfə val bərk bağlanmadığından gəmi dayanır və bunun bağlanması üçün 3 nəfər işçi artıq saatlar işləməyə məcbur olurlar.

Bütün bunlar onu göstərir ki, gəmi neft doldurmasına dayandıqda mexanik Qajuqov və onun müavini Dunin mexanizmləri yağlamırlar. Nəticədə bu kimi prostoy saatları artmasına səbəb olurlar. Prostoy saatların artması gəmi daşınma planının kəsirlə ödənilməsinə səbəb olur.

*"Qaspi bolşeviki" qəzeti,*
*3 oktyabr 1933-cü il, № 103*

### Zərbəçi teploxodun ehtiyacı zəif ödənilir

"Ağamalı oğlu" teploxodu ilə yarışan "Qomintern" teploxodu neft daşınma planının yerinə yetirilməsində heç də geridə qalmayır. Bu teploxod sentyabr ayında 9 reislik planı 100 faiz yerinə yetirmişdir. Oktyabr ayında dəxi 9 reisdən 6 reisini edərək, orta hesabla planı 105 faiz yerinə yetirmişdir. Bütün qomanda plan uğrunda mübarizədə səfərbərliyə alınmaqla sosyarış və zərbəçiliyə əhatə edilmişlərdir.

Aşağı qomanda makinaya yaxşı baxması və yanacağa qənaət uğrunda namuslu çalışması nəticəsində sentyabr ayının hər günündə sərf edilən yanacağın 10 % - nə qənaət edilmiş və buna görə də neft donanması tərəfindən 1500 manatla mükafatlandırılmışdır.

Teploxod hər reisi 83 saata getməli ikən, qapitanın idarə etməsi nəticəsində axırıncı reisə 75 saat getmişdir. Oktyabrın 25-də 39 nəfərlik ekipaja 8 cüt çəkmə və 6 cüt pencək verilmişdir.

Lakin bütün bu müvəffəqiyyətlərə baxmayaraq, bir sıra nöqsanlar da yox deyildir. Beləki, soyuqlar başlandığı halda neft donanması teploxodun yuxarı qomandasını hələ də isti paltarlarla təmin etməmişdir. Ərzaqların verilməsi dəxi qooperativ tərəfindən bəzən gecikdirilir. Teploxodun mədəni ehtiyaclarının ödənilməsi yaxşı qurulmamaqla buraya vaxtı-vaxtında mədəni baza tərəfindən qəzetələr verilmir. Radionun aqqumlyatoru xarab olduğundan və mandalina, balalayka qarmon və sair musiqi alətləri təmir olunmadığından, istifadəsiz qaldığı halda bu xüsusda Qaspi hövzə qomitəsi mədəni yaşayış sektoruna məlumat verilmişdirsə də, heç bir tədbir görülməmişdir.

Teploxodun bəzən yanacaqla yaxşı təmin edilməməsi nəticəsində prostoy saatları əmələ gəlir. Məsələn, oktyabrın 18-də 32-ci körpüdə Azneft tetorq tərəfindən teploxoda sulu yanacaq verildiyindən dənizdə maşın dayanaraq 2 saat prostoy olmuş, bu xüsusda akt tərtib edilərək əlaqədar təşkilatlara xəbər verilmişsə də, heç bir nəticə çıxmamışdır.

Neft donanma müdiriyyəti, teploxodun bütün ehtiyaclarını təmin edərək bir saat da olsun prostoya yol verməməklə, YIQ (b) F ZÖQ və AQ (b) F BQ-nin neft daşınması haqqındakı qərarlarını danışıqsız yerinə yetirməlidir.

*L. Quliyev.*
*"Qaspi bolşeviki" № 123 (161)*
*27 oktyabr 1933-cü il*

### Siyasi naryad uğrunda

"Paris Qommunası" zavodunun qazançıları sex firqə özəyi öz işlərini yeni əsaslar üzərində qurmaqdadır. Bu özəkdə 6 nəfər firqə təşkilatçısı olmaqla hər bir nəfər aşağı vəsilə özəyi katibi vardır.




Firqə özəyi tərəfindən bu yoldaşlara oktyabrın 17-dən 21-nə qədər nə iş görmələri haqqında siyasi naryad verilmişdir ki, bu yoldaşlar, 1-ci siyasi naryadı müvəffəqiyyətlə həyata keçirmişlərdir. Ayın 20-də çağırılan aşağı firqə təşkilatlarının iclaslarına yaxşı hazırlıq aparılması nəticəsində bu iclaslarda artıq dərəcədə aktiv bitərəf işçilər iştirak etmişdir.

Bu siyasi naryadın həyata keçirilməsi işində firqə özək katibi həm də sexin firqə təşkilatçısı olan TARVERDİYEV ƏLİ yoldaş daha aktiv çalışmışdır.

Belə ki, o öz vəzifəsi üzərində olan firqə üzv namizədlərini və həm də sexdə olan aktiv bitərəf işçiləri iclasa toplamış və onları firqə dərnəklərinə 100 faiz cəlb etmişdir.

Bundan əlavə qazançılar sexi alətçilər qrupunun firqə təşkilatçısı VOROBYOV yoldaş dəxi aldığı siyasi naryadı lazımı qədər həyata keçirməklə, başqa firqə təşkilatçısı PETUXOVA belə siyasi naryadın müvəffəqiyyətlə həyata keçirilməsində yardım etmişdir.

Firqə təşkilatçılarına oktyabrın 21-dən 23-nə qədər nə iş görmələri haqqında 2-ci bir siyasi naryad dəxi verilmişdir ki, bu naryadın birinci maddəsi oktyabrın 22-də çağırılan firqə iclaslarında həyata keçirərək, 2-ci maddəsini isə oktyabrın 23-də firqə üzv, namizədlərinin və aktiv bitərəf işçilərinin iştirakı ilə ödənilmişdir.

ƏLİ KƏBİRİ

*"Qaspi bolşeviki" № 123 (161)*
*27 oktyabr 1933-cü il*

### Siyasi naryadın tətbiqinə daha artıq diqqət

"ZAQFEDERASİYA" gəmi təmirat zavodunun firqə qomitəsi aşağı həlqələrdə rəhbərliyi canlandırmaq və onları gündəlik firqə qərarları ilə yaxından tanış etmək üçün siyasi naryad işlərinin canlanmasına və genişlənməsinə artıq fikir verməkdədir. Firqə qomitəsi tərəfindən verilən keyfiyyəti olduqca yaxşıdır. Nümunə üçün qomitə tərəfindən verilən 2 siyasi naryadı götürəlim!

Oktyabrın 20-də çilingər ŞEVİN İVANİN qrupuna verilən naryadda firqə üzvülük haqlarını yığmaq haqqında "BAKİNİSKİ RABOÇİ" qəzetəsinin 16 oktyabr tarixli nömrəsində YIQ (b) F qərarını təhlil etmək, oktyabr inqilabının 16-cı ildönümünün əhəmiyyətini aydınlaşdırmaq, kütləvi izahat işlərini genişləndirməklə bütün işçi və qommunistləri cəlb etmək kibi məsələlər qeyd edilmişdir.

ŞEVİN İVAN verilən naryadı tamamilə və vaxtından əvvəl öz qruppasında təhlil etmiş və üzvülük haqlarını yubadanlardan üzvülük haqlarını toplamışdır. Alətçilər sexi qrup təşkilatçısı BARSUVA verilən siyasi naryadda isə firqə təmizliyi haqqında başa salmaq ki, neft donanması gəmilərini təmir edən turba qazançılara alətlərin vaxtında verilməməsi, onların işini pozacaqdır.

Tapşırılan naryadlar alətçilər qruppasında dəxi vaxtından əvvəl təhlil edilmişdir.

"ZAQFEDERASİYA" gəmi təmirat zavodu firqə qomitəsi siyasi naryad işlərinin daha da genişlənməsinə çalışmalı və bütün qrupları siyasi naryadla təmin etməlidir.

*"Qaspi bolşeviki" № 127 (165)*
*1 noyabr 1933-cü il*

### Çağırışa qoşuluruq

YİQ (b) F ZÖQ katibi Berya yoldaşın payız-qış siyasi təhsili haqqındakı məktubuna əməli cavab olaraq, biz - "Qaspi bolşeviki" qəzeti redaksiyası "Stalinçi" qəzetinin çağırışına səs verir, təmirat zərbəçiləri və ayrı-ayrı gəmi işçiləri arasında siyasi təhsilin daha yüksək mərhələyə qaldırılması, bütün kommunist və namizədlərin dərnəklərə 100 faiz cəlb edilməsi, eləcə də payız-qış firqə təhsilinin müvəffəqiyyətlə yerinə yetirilməsi uğrunda daha ciddiyyətlə çarpışacağımıza və işdə "Bir nəfər də kommunist firqə təhsili dərnəklərindən kənarda qalmamalıdır" şüarını bolşevikcəsinə təbliq edəcəyimizə söz veririk.

Biz bu məqsədlə "Neft zərbəçisi" (Lökbatan), "Kirov neftçisi" və "Dokçu" qəzetlərini sosializm yarışına çağırırıq.

*"Qaspi bolşeviki" qəzeti,*
*14 noyabr 1933-cü il № 135*

### 200 tələbə qəbul edilmişdir

QASPAR məktəbinin yenidən qurulması ilə əlaqədar mart ayında 200-ə qədər yeni tələbə məktəbə qəbul olunmuşdur. Tələbələrin əksəriyyəti Azərbaycanın rayonlarındandır. Tələbələrin ümumi yataqxana evi ilə təmin edilməsi üçün əvvəlcədən yaxşı hazırlıq aparılmışdır. Rayondan gətirilən tələbələrin təchizatına yaxşı diqqət verildiyi kimi, mədəni-məişət sahəsindəki ehtiyacları dəxi vaxtında ödənilir. Tələbələr kollektiv surətdə kino və teatrolara göndərilirlər.

Ümumi yataqxana evlərinin təmizliyinə daha artıq diqqət verilmişdir. Ümumi yataqxana evləri yaxşı yataqxana uğrunda elan edilmiş ümumittifaq müsabiqəsinə qoşulmuşdur. Məktəbdə qızlar üçün xüsusi yataqxana evi düzəldilmişdir ki, buranın təmizliyi başqa yataqxana evlərinə nümunə ola bilər. Tələbələrin sağlamlığına xidmət etmək üçün ümumi yataqxana evləri yanında yeni doktor kabinəsi təşkil edilmişdir ki, burada gecə növbələri dəxi olur.

"Arxangelsk" gəmisində olan ümumi yataqxana evləri yeni binaya keçirilmişdir. Tələbələrin dərs hazırlaması üçün şərait yaradılmışdır. Belə ki, məktəbdə yeni dəftərxana və kitabxana təşkil edilmişdir.

*"Qaspi bolşeviki" qəzeti,*
*6 may 1934-cü il, № 23*

# BEYNƏLXALQ TRANSXƏZƏR NƏQLİYYAT MARŞRUTUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Çində Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun inkişaf perspektivləri müzakirə olunub.***

"Müzakirələr Çin Xalq Respublikasının Şanxay şəhərində Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun inkişaf perspektivlərinə həsr olunmuş "dəyirmi masa"da aparılıb.

"Dəyirmi masa"da iştirak edən Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu Müşahidə Şurasının sədri, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini İqbal Hüseynov bildirib ki, 2015-ci il avqustun 3-də bu marşrut üzrə Azərbaycan, Qazaxıstan, Gürcüstan, Türkiyə və Çin Xalq respublikaları arasında konteyner daşımalarına start verilib, daha sonra isə Ukrayna bu marşruta qoşulub.

Konteyner daşımalarının daha da inkişaf etdirilməsinin vacibliyindən danışan natiq bu tədbirin Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutuna yüklərin cəlb olunması istiqamətində mühüm rol oynayacağını bildirib.

Sonra "dəyirmi masa"da Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun və "Nomad Ekspress" nəqliyyat-logistika xidmətinin inkişaf perspektivləri, Çindən və əks istiqamətə yük daşımanın coğrafiyasının genişləndirilməsi, marşrutun cəlbediciliyi – yeni multimodal qərarlar, Avropa ilə Asiya arasında yük daşımalarının artırılması üçün yeni imkanlar mövzularında müzakirələr aparılıb.






Tədbir çərçivəsində Qazaxıstan, İran, Rusiya və Ukrayna dəmir yollarının, Almaniyanın logistik şirkəti olan DHL-in rəhbər işçiləri ilə ikitərəfli görüşlər keçirilib.

# SÖZ VERDİK Kİ...

***Azərbaycan xalqı öz keçmişi, xüsusilə də faşizmə qarşı müharibədə iştirakı ilə fəxr edir. Bu baxımdan İkinci Dünya müharibəsinin veteranları ən əziz və ən mötəbər insanlarımızdır.***





Bu günlərdə biz – Azərbaycan Dövlət Dəniz Akademiyasının bir qrup tələbəsi belə mötəbər insanlardan birinə -101 yaşlı müharibə veteranı Əhməd Məmməd oğlu Mirzəyevə baş çəkdik. Söhbət zamanı öyrəndik ki, sinəsini Böyük Vətən müharibəsi ordeni, "Almaniya üzərində Qələbəyə görə", "Qafqazın müdafiəsinə görə" medalları və sair təltiflər bəzəyən Əhməd baba 1915-ci il mayın 8-də Bakıda doğulub. Energetika sahəsində mühədis işləyib. Müharibə başlayanda 26 yaşı olub. Moskva ətrafında , Kalinin cəbhəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub və belə döyüşlərin birində gənc leytenant Əhməd Mirzəyev ağır yaralanır...

Amma Böyük Vətən müharibəsindən 71 il ötsə də, o illərin ağrı-acıları nə Əhməd babanın yaddaşından silinib, nə də canından çıxıb. Oğlu Vadim bildirdi ki, 10 il bundan əvvəl tibbi müayinədən keçərkən həkimlər atasının kürəyində qəlpə aşkarlayıblar.

Söhbət zamanı Əhməd baba ölkəmizdə müharibənin ağrı-acılarını görmüş insanlara daim diqqət və qayğı göstərilməsindən razılıq etdi. Dedi ki, Ümummilli lider Heydər Əliyev Böyük Vətən müharibəsi veteranlarının igidlik və şücaətlərini həmişə yüksək qiymətləndirib. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev də faşizmə qarşı müharibənin iştirakçısı olmuş insanlara hər zaman diqqət və qayğı ilə yanaşır. Dövlətimizin başçısının həyata keçirdiyi mühüm əhəmiyyətli tədbirlər hesabına müharibə veteranlarının sosial müdafiəsi daha da yaxşılaşır. Elə bu yaxınlarda - Qələbənin 71 illiyi ərəfəsində Azərbaycan Prezidentinin Sərəncamı ilə 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyə görə orden və medallarla təltif olunmuş şəxslərə birdəfəlik maddi yardımın verilməsi də dövlətimizin başçısının veteranlara qayğısının bariz nümunəsidir.

Bütün bunlara baxmayaraq, zaman ötdükcə sıraları seyrəlir onların. Seyrəldikcə də daha çox mənəvi yardıma ehtiyac duyurlar. Söhbət əsnasında da bunu hiss etmək çətin deyildi.

Sonda Əhməd baba ilə xatirə şəkli çəkdik və ona tez-tez baş çəkəcəyimizə söz verdik.

***Mənsur CÜMŞÜDOV,***
***Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi***

## Dəniz nəqliyyatı ilə sərnişin daşınması artmışdır

***2016-ci ilin yanvar-may aylarında dəniz nəqliyyatı ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 dəfə artaraq 6,6 min nəfər olub.***

Bu nəqliyyat növü ilə daşınmış yüklərin həcmi 2156,1 min ton təşkil edib. Yüklərin 43,6 faizi neft məhsulları olub.

Həmin dövr ərzində dəniz limanlarında 3668,1 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 93,1 faizini tranzit mallar təşkil edib. 2016-ci il mayın 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 36,6 min ton idxal yükləri olub.

## "Om" yedək-təchizat gəmisi təmirdən çıxdı

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Om" yedək-təchizat gəmisinin "Bibiheybət" Gəmi Təmiri Zavodunda dok təmiri yekunlaşıb. Gəmi doka qaldırıldıqdan sonra bütün gövdəsi təmizlənərək rənglənib, zəruri gövdə-qaynaq işləri aparılıb.***



Gəmi təmirçiləri "Om"un mexanizm və boru sistemlərində lazımi yoxlama və təmir işləri görüblər. Gəminin elektrik avadanlıqları və avtomatikası tənzimlənərək, istismara hazır vəziyyətə gətirilib, xidməti və yaşayış otaqlarında heyətin çalışması və dincəlməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, AXDG-nin yedək və təchizat gəmiləri dənizdəki neft-qaz yataqlarının təminatında əhəmiyyətli rol oynayır. "Om" gəmisi də "Azneft" İstehsalat Birliyi ilə müqavilə əsasında "Günəşli" yatağında aparılan əməliyyatlarda yaxından iştirak edəcək.

## Nobel Sülh Mükafatı laureatı Məhəmməd Yunus Azərbaycanda gedən iqtisadi inkişafı yüksək qiymətləndirib

***Azərbaycanda azad ticarət zonasının yaradılması ideyası region dövlətlərinin inkişafına dəstək verəcək.***



Bu fikir "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadovun Nobel Sülh Mükafatı laureatı Məhəmməd Yunus ilə görüşündə səsləndirilib.

Nobel Sülh Mükafatı laureatı Məhəmməd Yunus ölkəmizə səfəri çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyəti ilə maraqlanıb.

Bakı Limanının nəhəng nəqliyyat logistika mərkəzinə çevriləcəyini deyən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov perspektivdə duran məsələlərə toxunub. O, Azərbaycanda azad ticarət zonası yaradılması ideyasının region dövlətlərinin inkişafına da dəstək verəcəyini vurğulayıb.

Nobel Sülh Mükafatı laureatı Məhəmməd Yunus Azərbaycanda gedən iqtisadi inkişafı yüksək qiymətləndirib. O, özünün məşhur iqtisadi nəzəriyyələri haqqında da məlumat verib.

## Yeni İpək Yolunun həyata keçirilməsində ilk nəticələrini qeyd edir

***"Bir kəmər, bir yol" (İpək Yolu İqtisadi Kəməri və XXI əsrin Dəniz İpək Yolu) təşəbbüsünün həyata keçirilməsi ilk nəticələrini verir.***




Sinxua agentliyinin məlumatına görə, bu cür qiyməti Çinin Kommersiya Nazirliyi verib.

Kommersiya nazirinin köməkçisi Tun Daoçi Çinin Avrasiya ölkələri ilə ticari-iqtisadi əlaqələrinin inkişafını "son dərəcə sürətli" kimi səciyyələndirib.

Statistikaya görə, 2015-ci ildə "Bir kəmər, bir yol" təşəbbüsünün əhatə etdiyi ölkələrə yatırılan Çin investisiyalarının həcmi 18,2 faiz artaraq 14,8 milyard ABŞ dollarına bərabər olub. İl ərzində imzalanmış podrat tikinti müqavilələrinin dəyəri 7,4 faiz artıb və 92,6 milyard dollar təşkil edib.

Çin və tərəfdaş ölkələr birlikdə altı iri iqtisadi dəhliz yaratmağı planlaşdırır. Onlardan biri Qazaxıstan, Azərbaycan və Gürcüstandan keçməklə Çindən Avropaya uzanan Transxəzər beynəlxalq nəqliyyat marşrutudur.

Azərbaycan "İpək Yolu İqtisadi Kəməri" layihəsinin iştirakçısıdır. Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə dövlət səfəri çərçivəsində imzalanıb.

## Yüklərin Azərbaycandan keçməsini tövsiyə edib

***Qazaxıstan beynəlxalq daşıyıcılara Ukraynadan Qazaxıstana yüklərin daşınması zamanı iyulun 1-dən etibarən alternativ marşrutdan yararlanmağı tövsiyə edib.***



Qazaxıstanın İnvestisiya və İnkişaf Nazirliyinin mətbuat xidmətinin verdiyi xəbərə görə, nazirlik yüklərin çatdırılmasını təşkil edərkən Gürcüstan və Azərbaycandan keçməklə Xəzər dənizinə, oradan Aktau limanına, eləcə də Türkiyə, İran, Türkmənistan və Özbəkistan ərazilərindən istifadə etməyi tövsiyə edib.

Məlumatda qeyd edilib ki, bu tövsiyə Ukrayna və Rusiya arasında azad ticarət zonası haqqında müqavilənin 1 yanvar 2016-cı il tarixdən qüvvədən düşməsi ilə əlaqədardır.

## Kiçik həcmli gəmi istifadəçilərinə müvafiq sənədlər verilib

***Fövqəladə Hallar Nazirliyinin (FHN) Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyinin əməkdaşları Lənkəranda tədbir keçirib.***

FHN-nin Cənub Regional Mərkəzində təşkil olunan tədbirdə keçirilmiş texniki baxışa uyğun olaraq 430 kiçik həcmli gəmi istifadəçilərinə müvafiq sənədlər verilib.

Tədbirdə Müfəttişliyin əməkdaşlarının kiçik həcmli gəmilərin dövlət qeydiyyatı, texniki baxışı, sürücülük vəsiqələrinin alınması və gəmilərin təhlükəsiz istismarı mövzusunda çıxışları dinlənilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# RUSİYA XƏZƏR NEFTİNİN MÜHÜM TRANZİT KANALINI İTİRƏ BİLƏR

***"Transneft": "Sənaye təhlükəsizliyi tələblərinin pozulması faktlarına görə 11 inzibati işin başlanmasına baxmayaraq, vəziyyət daha pisləşib".***




Rusiyanın "Transneft" şirkəti kriminal vəziyyətlə əlaqədar Mahaçqala-Novorossiysk marşrutu ilə nəql olunan neftin həcminin azaldığını və Mahaçqala limanındakı "Daqnefteprodukt" terminalına boşaldıldığı zaman neftin həcmində itkilərin qeydə alındığını bildirib.

Şirkətin yaydığı məlumatda bildirilir ki, yaranmış vəziyyət Xəzər neftinin Rusiya infrastrukturundan keçən ixrac kanallarının bağlanmasına və mühüm tranzit kanalının itirilməsinə gətirib çıxara bilər.

Məlumatda deyilir ki, neftin tankerlərdən "Daqnefteprodukt" terminalına boşaldılmasından sonra yaranan itkilər və problemlərlə bağlı yük sahiblərindən "Transneft"in ünvanına mütəmadi olaraq müraciətlər daxil olur: "Neftin çənlərə ("Daqnefteprodukt" terminalının çənlərinə - redaktor.) boşaldılması zamanı, itkilərin həcmi, qüvvədə olan normativlərə əsasən, 0,2 faizi keçməməlidir. Türkmənistandan yük göndərənlər qeyd edirlər ki, 2013-cü ildə itkilərin həcmi 0,69 faiz, 2014-cü ildə - 0,84 faiz, 2015-ci ildə - 0,44 faiz, 2016-cı ilin birinci rübündə isə artıq 1,43 faiz təşkil edib", - deyə şirkət qeyd edib.

"Daqnefteprodukt" terminalının çənlərindən neft daha sonra "Çernomortransneft"ə ("Transneft"ə daxildir) təhvil verilərək magistral neft boruları sisteminə nəql edilir. Lakin, 2016-cı ilin mayında Türkmənistandan 5 min ton neft qəbul edən "Daqnefteprodukt" terminalı həmin həcmi "Transneft"in sisteminə təhvil verməkdən imtina edib. Hazırda "Daqnefteprodukt" yükün sahibini terminalın çənlərində "ölü" qalıqların əmələ gəlməsinə dair aktı imzalamağa məcbur etməyə çalışır", - deyə məlumatda bildirilir.

Bundan başqa, "Transneft" "Daqnefteprodukt"dan nefti təhvil alan zaman onun tərkibində xlorlu duzların konsentrasiya göstəricilərinin və suyun həddindən artıq yüksək olduğunu qeydə alıb.

"Yalnız 2016-cı ilin birinci rübü ərzində "Daqnefteprodukt"un çənlərindən kondisiyaya uyğun olmayan neftin qəbulu 16 dəfə dayandırılıb. 2015-ci il ərzində isə 50-dək analoji hal qeydə alınıb", - deyə məlumatda bildirilir.

"Rostexnadzor" tərəfindən yoxlamalar keçirilərək, sənaye təhlükəsizliyi tələblərinin pozulması faktlarına görə 11 inzibati işin başlanmasına baxmayaraq, vəziyyət daha pisləşib.

"Nəticədə, Mahaçqala-Novorossiysk marşrutu ilə nəql olunan neftin həcmi azalır. "Lukoyl" 2013-cü ildən Mahaçqala limanından neftin nəqlini iki dəfə azaldaraq, həcmləri Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinə yönəldib. Türkmənistan istehsalçıları da Mahaçqala limanından neftin nəqlini dayandırmaq niyyətində olduqlarını bildiriblər", - deyə "Transneft"in açıqlamasında bildirilir.

"Daqnefteprodukt" Səhmdar Cəmiyyətindəki kriminal vəziyyət və respublikanın inzibati qurumlarının fəaliyyətsizliyi, faktiki olaraq, Xəzər neftinin Rusiya Federasiyasının dövlətə məxsus yeganə infrastrukturu vasitəsilə ixrac marşrutunun bağlanmasına gətirib çıxarır.

Tranzit kanalının itirilməsi isə neftin potensial həcmlərinin Bakı-Tbilisi-Ceyhan və Gürcüstan limanlarına yönəldilməsinə gətirib çıxaracaq", - deyə "Transneft"in açıqlamasında bildirilir.

## Dənizdə birlikdə patrul xidməti çəkəcəklər



***İndoneziya, Malayziya və Filippin son vaxtlar dəniz quldurlarının gəmilərə artan hücumu və insanların girov götürülməsi ilə bağlı Sulu dənizində birgə patrul xidmətinin təşkili barədə prinsipial razılığa gəliblər. Bu barədə üç ölkənin müdafiə nazirlərinin Manilada keçirilmiş görüşünü ümumiləşdirən "STAR" qəzeti məlumat yayıb.***

Malayziyanın müdafiə naziri Hişamuddin Huseynin sözlərini sitat gətirən qəzet yazır: "Üç ölkə arasında dənizdə, havada patrul xidmətinin birlikdə təşkili və kəşfiyyat məlumatlarının mübadiləsinin aparılması nəzərdə tutulur". Nazirin sözlərinə görə, nümunə kimi Malak körfəzində aparılan birgə patrul xidməti əsas götürüləcək. Belə ki, həmin ərazidə xidmətin uğurlu təşkili nəticəsində burada 2004-cü ildə baş verən hadisələrin sayı 37-dən 2015-ci ildə cəmi 3-ə enib.

Əməkdaşlığın son formatının üç ölkənin müdafiə nazirlərinin gələn ay Cakartada keçiriləcək görüşü zamanı dəqiqləşdiriləcəyi bildirilir.

## "Mistral" tipli iki gəmi alıb



***Misir Dövlət Televiziyasının verdiyi məlumata görə Misirin Fransadan aldığı "Mistral" tipli helikopterdaşıyan gəmi İsgəndəriyyə sahillərinə gəlib. Fransa Misirin dəniz donanmasına qoşulub.***

Misirin keçmiş prezidentinin şərəfinə "Camal Əbdül Nasir" adlanan helikopterdaşıyan gəmi Aralıq dənizində Fransa ilə birgə keçirilən "Kleopatra-2016" hərbi təlimlərində iştirak edib.

Misir Fransadan "Mistral" tipli iki gəmi alıb. Bunlar Misir donanmasının heyətində ən yeni gəmilər olacaq. Uzunluğu 199 metr, eni 32 metr, hündürlüyü 58 metr olan helikopterdaşıyan gəminin ümumi yük tutumu 22 min tona bərabərdir.

# DƏNİZDƏ BOĞULANLARIN SAYI ARTIR



***Təkcə bu yaxınlarda bir həftə ərzində ən azı, 880 miqrant və qaçqın Aralıq dənizini keçmək istərkən dənizdə boğulub. Bu barədə Birləşmiş Millətlər Təşkilatının qaçqınlar üzrə agentliyi bildirib. Böyük Birtaniyanın "The Guardian" media qurumu yazır ki, dənizdə boğulanların sayı ilə bağlı rəqəm İtaliyaya aparılan sağ qalmış qaqçınlarla müsahibə nəticəsində müəyyənləşdirilib.***

Birləşmiş Millətlər Təşkilatının qaçqınlar üzrə agentliyi tərəfindən o da qeyd edilib ki, bu il dənizi keçmək istərkən boğulan miqrant və qaçqınların sayı 2510 nəfərə çatıb, ötən ilin müvafiq dövründə isə bu rəqəm 1855 idi. Bu barədə də BMT-nin sözçüsü Uilyam Spindler məlumat verib. O bildirib ki, hazırda insan qaçaqmalçıları insanları qayıqlara dolrurur, amma bu zaman bir çox məqamları qətiyyən nəzərə almırlar: "Bu qayıqlar üzmək üçün o qədər də yararlı deyil və dənizi keçmək üçün bir sıra zəruri göstəricilərə cavab vermir. Elə buna görə onlar sahildən aralanandan az sonra xilasedicilərı köməyə çağırmağa məcbur olurlar. Xilasedicilər köməyə tələssələr də, bəzən hər şey çox gec olur"...

Qeyd edək ki, Yaxın Şərqin Suriya, Liviya kimi dağılmaqda olan ölkələrində ölüm və qırğınlardan canını qurtarmağa çalışan qaçqınların Aralıq dənizində bu cür müəmmalı və kütləvi şəkildə batması ilə bağlı problem getdikcə kəskinləşməkdədir. Boğulma halları ildən-ilə çoxalır və kütləviləşir. Dünya birliyi və beynəlxalq təşkilatlar isə heç nə ilə kömək edə bilmir.

***Tahir DADAŞOV***





## 60 mindən çox mühacir həlak olub və ya itkin düşüb



***Son 20 il ərzində bütün dünyada dəniz və ya quru yolla təhlükəsiz ərazilərə keçməyə cəhd edərkən 60 mindən çox mühacir həlak olub və ya itkin düşüb. Bu barədə məlumatlar Miqrasiya üzrə Beynəlxalq Təşkilatın məruzəsində yer alıb.***

RİA Novosti informasiya agentliyinin verdiyi xəbərə görə, "Ölüm səyahəti: həlak olmuş və ya itkin düşmüş mühacirlərin müəyyən olunması və izlənməsi" adlı məruzə 1996-cı ildən indiyədək miqrasiya ilə bağlı vəziyyəti qiymətləndirir.

Təşkilatın məlumatına əsasən, 2015-ci ildə təhlükəsiz ərazilərə keçməyə cəhd göstərən 5,4 min mühacir həlak olub və ya itkin düşüb. Bu il isə Avropaya üz tutan hər 23 qaçqından biri həyatını itirir. Ölümlə nəticələnən faciələrin 80 faizi mühacirlər Aralıq dənizindən keçərkən baş verir.

# QAÇQINLARIN SAYI REKORD HƏDDƏ ÇATIB



***BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ümumdünya Qaçqınlar Günü münasibətilə yaydığı hesabata görə, 2015-ci ildə dünyada qaçqın, məcburi köçkün və sığınacaq axtaran insanların sayı 65,3 milyon nəfər olub.***

Hələ 2011-ci ildə BMT dünyadakı qaçqınların sayının 42,5 milyona çatdığını elan etmişdi. Cəmi beş il keçməsinə baxmayaraq bu kədərli rekordu daha böyük rəqəmlə yeniləmək lazım gəlib. Hesabatda bildirilir ki, planetimizdə hər 113-cü insan qaçqınlıq həyatı yaşamağa məcburdur və cəmi bir il ərzində qaçqınların sayı 12,4 milyon çoxalıb. Yeni qaçqın kütləsinin yarıdan çoxu cəmi üç ölkənin payına düşür: Suriya (4,9 milyon nəfər), Əfqanıstan (2,7 milyon nəfər) və Somali (1,1 milyon nəfər).

Türkiyə artıq ikinci ildir ki, ən çox qaçqın qəbul edən ölkələr siyahısında ilk yerdə durur. Bu ölkəyə pənah gətirən qaçqınların sayı 2,5 milyondan artıqdır.

Ekspertlərin rəyincə, "soyuq müharibə" dövründən qalmış və həllini gözləyən münaqişələr, eləcə də son illərdə alovlanan yeni münaqişə ocaqları və vətəndaş müharibələri qaçqınların sayının sürətlə artmasının əsas səbəbləridir.

## Turist gəmisi yoxa çıxıb



***"New Straits Times" nəşrinin yaydığı məlumata əsasən, malayziyalı xilasedicilər iyunun 24-də Cənub Çin dənizində təhlükə siqnalı vermiş gəminin axtarışlarına başlayıblar. Göyərtəsində 24 nəfər olan gəminin turistlərə xidmət göstərdiyi bildirilir.***

Gəmi ilə son əlaqə hadisədən bir gün əvvəl yerli vaxtla saat 23:00-də saxlanılıb. Həmin vaxt gəmi Malayziyanın qərbində yerləşən Sabah ştatının yaxınlığında olub. Bundan sonra gəminin heyəti ilə əlaqə kəsilib.

Yayılan məlumatda bildirilir ki, göyərtədə 12 çinli turist, yerli kurortlardan birinin 6 əməkdaşı və eyni sayda heyət üzvləri var.

# ON BİR AYIN SULTANI

*Ramazanda oruc məhz Allahın buyruğunu yerinə yetirib Onun rizasını qazanmaq üçün tutulur. Oruc tutmaq hər bir müsəlman üçün vacibdir, çünki oruc islamın beş fərzindən biridir. Ramazana əbəs yerə on bir ayın sultanı demirlər. Bütün müqəddəs kitablar, o cümlədən Qurani-şərif bu ayda nazil olmuşdur. Allahın sonuncu elçisi Məhəmməd salavatullaha peyğəmbərlik bu ayda verilmişdir. Müsəlmanlar Məkkəni bu ayda fəth etmişlər. Savab cəhətdən min aydan daha xeyirli olan Qədr gecəsi bu aya təsadüf edir.*




İnsanlar islamdan əvvəl də oruc tutmuşlar, yəni Oruc islamın zühuru ilə başlamamışdır. Qurani-kərimdə deyilir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!.. (Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu, onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!". (Bəqərə,183-184).

Uca Yaradan möminlərə oruc tutmağı buyurmaqla onları pis əməllərdən çəkindirir. Oruc insanda, hər şeydən əvvəl, nəfsə hakim olmaq vərdişi aşılayır, eləcə də səbir, iradə və təmkin tərbiyə edir. Ramazan ayında oruc tutmağı buyuran Tanrı insanı sınağa çəkir: varlı kasıbın sosial vəziyyətini anlayır, ona münasibətdə xeyirxah olmağın vacibliyini yadına salır. Eyni zamanda orucun böyük əxlaqi-mənəvi, sosial əhəmiyyəti var. Hədisi-şərifdə deyilir ki, "oruc sipərdir", yəni müsəlmanı pis əməllərdən qoruyan gizli silahdır.

Oruclüq ayında möminlər düşmənçiliyə, umu-küsüyə son qoymalı, bir-birinə münasibətdə mərhəmətli olmağı, bir-birini bağışlamağı bacarmalıdırlar. Allah-təala oruc tutmağı buyurmaqla bütün insanların mehriban şəraitdə yaşamasının zəruriliyini xatırladır. İlin bir ayı ərzində müsəlmanlar eyni cür qidalanır, eyni cür həyat tərzi keçirir, nəfsini, şəhvətini cilovlamaq məcburiyyətində qalırlar ki, bu da hər bir insan, bütövlükdə cəmiyyət üçün olduqca vacibdir.

Allah-təala bəndəsinə faydalı olmayan heç nəyi əmr etməz! Orucda böyük ilahi hikmət var. Peyğəmbərimiz Məhəmməd salavatullah buyurmuşdur: "Oruc tutun ki, sağlam olasınız!" Qədim zamanlardan oruc insan sağlamlığını möhkəmlətmək, müxtəlif xəstəlikləri müalicə etmək üçün təbii vasitə kimi nəzərdən keçirilir. Hələ islamdan çox əvvəl böyük mütəfəkkirlər müəyyən müddət ac qalmağı, yəni oruc tutmağı tövsiyə etmişlər. Elə müasir dövrdə də oruc vasitəsilə bir çox xəstəliklərə əlac tapmaq mümkün olmur. Bu gün həkimlər təsdiqləyirlər ki, oruc tutmaq hamı üçün, hətta sağlam adamlar üçün həyati zərurətdir. İnsan qida qəbul edərkən, nəfəs alarkən həm də külli miqdarda toksin maddə qəbul edir. Bu zərərli maddələri bədəndən oruc tutmaqla kənarlaşdırmaq mümkündür. İnsan oruc tutarkən mədə, bağırsaqlar, qaraciyər və həzm prosesində iştirak edən digər orqanlar istirahət edir. Bu isə həzm sisteminin yaxşılaşmasına gətirib çıxarır. Qan təmizlənir, beyin daha yaxşı işləyir. İnsanın cismində zəif, xəstə, yaxud zədələnmiş hüceyrələr yeniləri ilə əvəzlənir. Ümumiyyətlə, insan orqanizminin elə bir üzvü yoxdur ki, orucun müsbət təsirinə məruz qalmasın.

Qeyri-müsəlman ölkələrində aparılmış və on minlərlə xəstəni əhatə etmiş araşdırmalar sübut etmişdir ki, oruc bir çox digər xəstəliklərin, o cümlədən yüksək qan təzyiqinin, qaraciyər, dəri xəstəliklərinin, xüsusilə allergiya və xroniki ekzemanın və s. müalicəsinə kömək edir. Bundan başqa, oruc bir çox insanların əziyyət çəkdiyi köklükdən və onun doğurduğu xəstəliklərdən qurtulmaq üçün təsirli vasitədir. Eyni zamanda oruc pis vərdişləri (siqaretə, narkotik maddələrə bağlılıq və s.) tərgitməyə kömək edir.

Beləliklə, insan oruc tutmaqla həm ruhunu, həm də bədənini tərbiyə edir. Axı sağlam ruh yalnız sağlam bədəndə olur!

Orucluq ayı başa çatanda isə bütün müsəlman dünyası Ramazan bayramını qeyd edir. Hər bir müsəlman üçün bir ay oruc tutmaq fərz olduğu kimi, Ramazan bayramında fitrə zəkatı vermək də vacibdir. Hədisi-şərifdə deyilir ki, Allah bəndəsindən tələb olunan fitrə verilməyənədək Ramazan ayında tutulmuş oruc Yerlə göy arasında asılı qalır.

Müsəlman fitrə zəkatını bəxş etdiyi nemətlərə görə Uca Yaradana şükür etmək, bayram günü kasıbları sevindirmək, oruc vaxtı buraxılmış səhvlərdən təmizlənmək üçün verir. Fitrəni yalnız imkanlı müsəlmanlar çıxarmalıdırlar. Ailə sahibi ailənin hər bir üzvünün adından fitrə verməlidir.

Vaxtilə fitrə buğda, arpa, xurma, düyü, kişmiş və s. ərzaq məhsullarından adambaşına təxminən 3 kiloqram həcmində ödənilirdi. Zaman keçdikcə kasıblara və ehtiyacı olanlara münasibətdə göstərilən bu xeyirxahlıq başqa formalar da almışdır. İndi fitrəni pul şəklində də verirlər. Əslində, bu, daha münasibdir. Belə ki, fitrəni pul kimi qəbul edən şəxs onu öz ehtiyaclarına uyğun şəkildə xərcləmək imkanı əldə edir. Özü də fitrə yalnız halal maldan verilməlidir.

Fitrə bayram namazı başlayanadək çıxarılmalıdır. Əks təqdirdə, bu, fitrə hesab olunmur, adi sədəqə sayılır. Fitrəni bayramdan bir-iki gün əvvəl də çıxarmaq olar.

Çıxarılan fitrə ilk növbədə ehtiyacı olan qohumlara, qonşulara, tanışlara, eləcə də digər insanlara verilir. Fitrə bir kasıbın azı birgünlük qida ehtiyacını ödəməlidir. İmkanlı müsəlmanlar daha çox fitrə çıxarıb savab qazanırlar. Özü də bir şəxsin fitrəsi bir kasıba da verilə bilər, bir neçə kasıb arasında da bölünə bilər.

Ramazan bayramının fəzilətləri təkcə fitrə çıxarmaqla məhdudlaşmır. Bayram günlərində müsəlman ailələrində şənlik əhval-ruhiyyəsi hökm sürür. Uşaqlara hədiyyələr verilir, qonşular, dostlar bir-birinə qonaq gedir, bayram sovqatları aparırlar. Qohum-əqrəba bir yerə toplaşır, bayramı birlikdə qeyd edirlər. İnciklikler aradan qaldırılır, küsülülər barışırlar.

Ramazan bayramı həm də müsəlmanların həmrəyliyini, birliyini, onların arasında qarşılıqlı anlaşmanı möhkəmlədən mühüm hadisədir. Bayramın davam etdiyi günlərdə insanlar bir-birinə qəlbən daha yaxın olur, bayram sevincini bölüşürlər.

Bütün müsəlman dünyasında olduğu kimi, etiqad azadlığı təmin edilən ölkəmizdə də Ramazan bayramı yüksək səviyyədə qeyd edilir. Bayram münasibətilə iki gün qeyri-iş günü elan edilir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda, öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Sadəcə olaraq, müstəqillik əldə etdikdən sonra bu bayram rəsmi bayram kimi qeyd edilir".

Mübarək Ramazan ayında Tanrıya edilən dualar daha tez qəbul olunandır. Gəlin, işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsi, Azərbaycanımızın tərəqqisi, daha da qüdrətlənməsi üçün dua edək! Allah orucunuzu və müqəddəs ayda edəcəyiniz duaları qəbul eləsin! Amin!

***Tahir DADAŞOV***

# YARIZARAFAT, YARIGERÇƏK

**Qəribədir, "Malış"la böyüyənlərin də ağzından çox vaxt süd iyi gəlir.**

**Vallah, heç nə bilməsəm də, onu yaxşı bilirəm ki, ağıl olanda ancaq və ancaq başda olur.**

**Yalansız məqsəd olsa da, məqsədsiz yalan olmur.**

**Başqalarının da uğuruna sevin ki, ən azı sevincin həmişə bol olsun.**

**Güc ... biclikdədir?**

**Eh, qarın, qarın... Təkcə qardaşdan irəli deyilmişsən.**

**Çörəyimizin duzu var e... Sadəcə, çörəyimizi yeyənlərin adamlığı yoxdur.**

**Çox adamın çörəyinin daşdan çıxması o demək deyil ki, daşda yaxşı pul var.**

**Gəmidə oturmayanlar da gəmiçilərlə niyə dalaşsınlar?**

**Ermənilər hara desən, gələ bilərlər. Amma ağıla çətin ki, gəlsinlər.**

**Badalağın birini ən ucuz neçəyə vururlar?**

**Hər yalanın öz diapazonu var.**

**Torpaq baha olduğu üçün çox adam əməllərinə görə utanıb yerə girmir?**

**Keçdi o günlər. Adamı göydə oxuyurdular.**

**Dilinin bəlasına düşən bəladan dilə düşənlərdən çoxdur.**

**"Halal" kolbasası halalla haramın fərqini bilməyənlər üçündür?**

**Fəxrlə ... əslini dananlar var.**

**Yaxşı adam olduğumu mən də bilirəm. Amma ayı hardan bilsin? Xüsusən ac olanda...**

**Maraqlıdır, öz adlarını düzgün yaza bilməyənlər o boyda yalanları necə quraşdırırlar?**

**Yüz fikir bir borcu ödəmirsə, bu, o demək deyil ki, borcunu qaytarmaq barədə düşünməyəsən.**

**Görəsən indiki "məsləhətli donlar" niyə bu qədər dar olur?**

**Yəqin ət ucuz olmadığı üçün yaxşı adamlara daha quzu kəsmirlər.**

**Sudan quru çıxa bilməyənin quruda da işi həmişə yaş olur.**

**İlk baxışdan sevgi yoxdur? Pula əksəriyyət ilk baxışdan vurulur ki?!**

**Hirs, başı olmayan adamların harasından vurur?**

**Dostun nə qədər çox olsa, düşmənin o qədər az sevinəcək.**

**Həqiqətdən sənin, yalandan mənim xoşum gəlmirsə ortaq məxrəcə necə gələ bilərik?**

**Bütün müharibələr qarın davasının böyümüş formasıdır.**

**Gücün sözü sözün gücündən güclü olan yerdə dil ölür.**

**Göyçəklərin içində ən pis ağzıgöyçəklərdir.**

**Qapını örtməyənlər nə vaxtsa quyruğu qapı dalında qalanlardır?**

**Baxmağa bir şey olmadığı üçün adama dəvə nalbəndə baxan kimi baxırlar?**

**Keçəlliyin xeyri də var. Tüklərin heyrətdən heç vaxt biz-biz durmur.**

**Arabir "qurd ürəyi" də yemək lazımdır.**

**Ən çox ... adamlıqdan uzaq adamlardan uzaq ol.**

**Səbri çox olanın səhvi az olar.**

**Düzü olmayanın həmişə qalın üzü olur.**

**Yalan orucu batil edir?! Elə isə çox adamın oruc tutmasına nə ehtiyac?!**

**"Hırnan-zırı" qanmayana nə işarə?**

**Hamı özünü haqlı sayanda saymağa bir şey olmaz.**

**Duzlu olan şeylərdən ancaq və ancaq duzlu söhbətin xeyri var.**

**Ən yaxşı xəmir nə qədər su aparır?**

**Deyəsən həyat ən çox aktyor yetişdirir.**

**Kor olmayanlar niyə mərifət sarıdan korluq çəkirlər?**

**Yaxşı ki, ömür əbədi deyil. Yoxsa pis adamlara həmişə dözmək olar?**

***Rasif TAHİROV***



# 1,7 KİLOMETRLİK GÖYDƏLƏN

***Yaponiyalı mühəndislər dünyanın ən hündür göydələnini inşa etməyə hazırlaşırlar. Tikintisinin 2045-ci ildə tamamlanması planlaşdırılan layihə çərçivəsində inşa ediləcək 1,7 kilometr hündürlüyündə olacaq göydələn hələ ki, dünyanın ən yüksək binası sayılan Dubaydakı məşhur "Bürc-Xəlifə"dən iki dəfə böyük olacaq.***

"independent.co.uk" saytı xəbər verir ki, 2045-ci ildə tamamlanması nəzərdə tutulan meqalayihə çərçivəsində 1,7 kilometr hündürlüyü olacaq göydələn isə "Sky Mile Tower" adlandırılacaq.

# 33 ARKADAN İBARƏT OLAN KÖRPÜ YALNIZ ÇAYI KEÇMƏK ÜÇÜN DEYİL, HƏM DƏ İSTİRAHƏT ÜÇÜN NƏZƏRDƏ TUTULUB

***İran İslam Respublikası zəngin tarixi keçmişi ilə xarici turistləri cəlb edən ölkələrdən biridir. Buradakı tarixi abidələr avropalı turistlər üçün olduqca maraqlıdır.***



Belə tarixi abidələrdən biri də İsfahan şəhərinin mərkəzindən axan Zayəndə çayı üzərindəki tarixi Si o se pol körpüsüdür ("pol" sözü fars dilindən tərcümədə körpü deməkdir. Si o se pol isə 33 arkası olan körpü kimi tərcümə edilir).

Bu körpü Səfəvi dövlətinin şahənşahı II Şah Abbas tərəfindən tikdirilib. Körpünün tikintisinə 1599-cu ildə başlanılıb və 1602-ci ildə başa çatdırılıb. Uzunluğu 300 metr, eni 14 metr olan körpünün tikintisini II Şah Abbas Gürcüstan əsilli vəziri Allahverdi xana tapşırmışdır. Vəzir İranda, Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərən tanınmış memarları dəvət edərək körpünü xüsusi zövqlə tikdirib. Belə ki, 33 arkadan ibarət olan körpü yalnız çayı keçmək üçün deyil, həm də istirahət üçün nəzərdə tutulub. Körpünün üstündə bir neçə otaq inşa edilib ki, bunların birindən çayın suyunun artıb azalmasını müşahidə etmək üçün istifadə edilib. Otaqlardan biri xüsusi olaraq şahənşahın, digərləri isə saray əyanlarının gəzinti zamanı istirahəti üçün tikilib. Otaqların şəhərə və çaya baxan pəncərələri var.



Müasir dövrdə bu körpü turistlərlə yanaşı, yerli əhalinin də gəzinti və istirahət yeridir. Gecələr körpünün işıqlandırılması olduqca maraqlıdır və bura İsfahan gənclərinin sevdiyi məkanlardandır.

***Rabil Kətanov***

# AZƏRBAYCAN FORMULA-1 AVROPA QRAN-PRİSİNİN TARİXİNƏ ÖZÜNƏMƏXSUS PARLAQ SƏHİFƏ YAZDI





***Azərbaycan son illər iri miqyaslı tədbirlərə, o cümlədən mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edir. Artıq dünyada idman ölkəsi kimi tanınan Azərbaycan "Bakı-2015" ilk Avropa Oyunlarının əla təşkili ilə diqqəti bir daha özünə yönəltdi. Bütün bunlar dövlətimizin uğurlu idman siyasətindən xəbər verir. Avropa və dünya çempionatları, irimiqyaslı yarışlar mükəmməl təşkilatçılıq, yerli idmançıların beynəlxalq arenada uğurlu çıxışı ölkəmizdə idmana göstərilən dövlət qayğısının bariz nümunəsidir.***

### Formula-1 Avropa Qran-prisi: mükəmməl təşkilatçılıq səviyyəsi

Azərbaycan iyunun 17-19-da daha bir mötəbər idman yarışına ev sahibliyi etdi. Bakıda ilk dəfə Formula-1 Avropa Qran-prisi təşkil olundu. Bu mövsümdə Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsi olan Bakı yarışı çox maraqla gözlənilirdi. Yeni mədəniyyət, incəsənət, adət-ənənə, ən əsası tras sürət sevən azarkeşlərin və Formula-1 pilotlarının diqqətini çəkirdi. Hamı dinamik inkişaf edən bu ölkəni canlı görmək arzusunda idi.

Yarışın Azərbaycanda təşkil olunmasını yüksək qiymətləndirən "Formula One Management"in prezidenti Berni Ekklstoun bu barədə danışarkən deyib: "Bakı Şərq və Qərb mədəniyyətini özündə birləşdirən unikal şəhərdir. Formula-1 yarışlarında şəhərin gözəlliyi, tarixi və coğrafiyası mühüm amil hesab olunur. Biz də Bakının tarixini və gözəlliyini bütün dünyadakı Formula-1 azarkeşlərinə nümayiş etdirmək qərarına gəldik".

Yüksək təşkilatçılığın arxasında təbii ki, gərgin iş və hazırlıq dayanır. 6,006 kilometrlik trekin hazırlanması, təhlükəsizlik işlərinin təşkili, pit binasının və Paddok ərazisinin tikintisi peşəkar komandanının uğurlu işi kimi qiymətləndirilə bilər.

### Qədim və müasir memarlıq abidələrini əhatə edən valehedici trek

Beynəlxalq Avtomobil Federasiyası tərəfindən yüksək qiymətləndirilən Bakı trekinin layihəsi almaniyalı memar Herman Tilkeyə məxsusdur. Yarışın keçirildiyi Bakı şəhər halqası ilə bağlı üç variantın hazırlandığını vurğulayan Herman Tilke: "Hazırkı treki seçməyimizin səbəbi Bakının tarixi, müasir görünüşünü dünyaya çatdırmaqdır. Müəllifi olduğum bütün treklər mənim üçün əzizdir. Ancaq Bakı şəhər halqası hazırda onların arasında mənə ən doğma olanıdır".

Həqiqətən də İçərişəhərin qala divarları ətrafında tam yeni bir macəranın enişli-yoxuşlu dar keçidləri ilə yanaşı, sahilboyu müasir göydələnlərə və Xəzər dənizinə ecazkar mənzərənin açıldığı geniş sürət zolağını özündə birləşdirən Bakı şəhər halqasında bolidləri ilə şütüməyi pilotlar özləri də səbirsizliklə gözlədiklərini bildirirdilər. Ona görə ki, Melburn, Monako və Sinqapur kimi, Bakı da şəhər trasına ev sahibliyi edirdi. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövrə vururdular. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərin tam simasını görmək imkanı qazanırdılar.

Müxtəlif çətinlikli 20 döngəsi, dar keçidləri və ən maraqlısı sahil boyunca saatda 340 kilometr sürətlə hərəkət etmək imkanı verən 2,2 kilometr uzunluğunda olan hissə Bakı şəhər halqasını cari Formula-1 təqvimində ən sürətli şəhər treki olmasına imkan verirdi. Qran-pridə orta sürət 210, maksimum sürət isə saatda 340 kilometr nəzərdə tutulsa da, yarışda ən yüksək sürət də məhz elə bu hissədə saatda 364 kilometr olaraq qeydə alındı.

### Bakı Qran-prisini 187 ölkədə 500 milyon tamaşaçı izləyib

Yarım milyard tamaşaçı auditoriyası ilə dünyada ən çox izlənilən idman turnirlərindən olan Formula-1 yarışının keçirilməsinin Bakıya həvalə olunması Azərbaycanın beynəlxalq idman aləmində qazandığı nüfuzun göstəricisi hesab edilə bilər. Ölkəmiz birinci Avropa Oyunlarından sonra Formula-1 kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etdi və bu mütəxəssislər, eləcə də pilotların özləri tərəfindən yüksək qiymətləndirildi.

Formula-1 azarkeşlərinin, habelə turistlərin ölkəmizə rahat gələ bilməsi üçün müvafiq prosedur sadələşdirildi və bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev bir neçə sərəncam imzaladı. Dövlətimizin başçısı Avropa Qran-prisinə hazırlıq işlərini də daim nəzarətdə saxlayırdı. Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə Berni Ekklstoun Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını, bu tədbirin Bakıda keçirilməsinin Azərbaycanda gedən inkişaf prosesləri ilə bağlı məlumatların dünyada yayılması işinə xidmət edəcəyini bildirmişdi.

Təbii ki, mötəbər yarışlar ölkəmizin sürətli inkişafını, Azərbaycan xalqının zəngin mənəvi dəyərlərini, qonaqpərvərliyini bütün dünyaya nümayiş etdirmək baxımından misilsiz imkandır. Bu baxımdan dünyanın müxtəlif ölkələrindən minlərlə Formula-1 azarkeşinin ölkəmizə gəlməsi, həmçinin yarışı işıqlandırmaq üçün 160-dək əcnəbi jurnalistin Bakıya ezam olunması, ümumilikdə Qran-prini televiziya vasitəsilə 187 ölkədə 500 milyon tamaşaçının izləməsi Azərbaycanın təbliğində mühüm rol oynadı.

### Bakı Formula-1 pilotlarının gözü ilə

Bu mötəbər yarışla əlaqədar ölkəmizə gələn pilotlar, komandaların üzvləri, habelə azarkeşlər də yarışın yüksək səviyyədə keçirilməsi ilə yanaşı, Azərbaycanın zəngin mədəniyyətinə, qədim tarixinə, habelə milli mətbəximizə, xüsusən də paytaxt Bakının füsunkar gözəlliyinə valeh olduqlarını dönə-dönə vurğulayırdılar.

Yarışdan əvvəl də Bakıya səfər etmiş ispaniyalı pilot, Formula-1 Avropa Qran-prisinin ulduz elçisi Fernando Alonso Bakının Qərb ilə Şərqin ahəngdarlığını özündə yüksək səviyyədə təcəssüm etdirdiyini vurğulayaraq demişdi: "Azərbaycanın çox zəngin tarixi və mədəniyyəti var. Ölkənizə səfərim zamanı xalçalarınızla tanış oldum. Doğulduğum İspaniyada da xalçaçılıq ənənəsi var. Ancaq Azərbaycan xalçaları özünəməxsusluğu ilə seçilir, naxışları isə çox gözəl və fərqlidir. Səfər etdiyim ölkələrdə hər zaman oranın mədəniyyəti ilə maraqlanıram. Deyə bilərəm ki, sizin ölkəniz zəngin adət-ənənəyə malikdir. Mətbəxiniz isə xüsusilə fərqlənir. Qonaqpərvərlik hər bir insanın üzündən hiss olunur".

Formula-1 üzrə üçqat dünya çempionu Luis Hamilton da özünün "İnstagram" səhifəsində Azərbaycan paytaxtını ecazkar şəhər adlandırıb.

Daha bir pilot, "Force İndia" komandasının meksikalı pilotu Serxio Peres isə Bakı şəhər halqasının özünəməxsusluğuna heyranlığını belə ifadə edib: "Bakı trası çox mürəkkəbdir. Əsl yürüş trasına nail olmaq üçün Herman Tilke çox çalışıb. Burada səhvə yer yoxdur və mənim çox xoşuma gəlir. Axı Formula-1 məhz belə də olmalıdır. Bakıda hər dövrə meydan oxuyur və mən çox şadam ki, belə bir tras ixtiyarımıza verilib".

### Formula-1 Avropa Qran-prisi: Azərbaycanın daha bir uğuru

Formula-1 Avropa Qran-prisinin üç gününün həyəcanı başa çatdı. Lakin bu unudulmaz anlar, yüksək sürətin doğurduğu adrenalin, parlaq qələbələr, sərt döngələr, şəhərimizin tarixi hissəsinin və müasir görkəminin mavi Xəzərin fonunda möhtəşəm vəhdətinin doğurduğu bənzərsiz mənzərə, dünyanın məşhur müğənnilərinin konsertləri paytaxtın sakinləri, Formula-1 azarkeşləri ilə yanaşı, pilotların da xatirəsində uzun illər qalacaq.

Beləliklə, sürətlə inkişaf edən, beynəlxalq aləmdə böyük nüfuz qazanan, sayılıb-seçilən müasir müstəqil Azərbaycan daha bir mötəbər uğura imza ataraq Formula-1 tarixinə özünə məxsus parlaq səhifə yazdı.

*Səxavət QULİYEV*




## Boksçularımız dünya təsnifat turnirini uğurla başa vurublar




***İyunun 16-dan 25-dək Bakının ev sahibliyi etdiyi və "Rio-2016" Olimpiya Oyunlarına lisenziya xarakterli boks üzrə dünya təsnifat turnirin sonuncu günündə final qarşılaşmaları Azərbaycan yığmasının üzvləri üçün uğurla nəticələnib.***

Axşam proqramında isə həlledici döyüşə çıxan Azərbaycan millisinin üzvləri, Rüfət Hüseynov (49 kq) və Teymur Məmmədov (81 kq) yarışın qalibi adını qazanıblar.

Digər atletimiz - 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Kamran Şahsuvarlı da artıq lisenziya qazanıb. Bunun üçün Kamranın dörddəbir finalda uduzduğu Maykl Oreylli finalda türkmənistanlı Aslanbek Açilovu məğlub etməli idi. İlk "beşliy"in Rioya vəsiqə qazandığı çəki dərəcəsində çempion məhz Oreylli olub. Açilov Oreylli ilə həlledici qarşılaşmaya çıxmaqdan imtina edib və nəticədə Kamran Şahsuvarlı da Rio Olimpiadasına lisenziya əldə edib.

Beləliklə, Azərbaycanın kişilərdən ibarət boks üzrə milli komandası tarixdə ilk dəfə olaraq Olimpiadada tam heyətlə təmsil olunacaq.

Xatırladaq ki, bunadək ən yüksək nəticə 12 il əvvəl Afina Yay Olimpiya Oyunlarında qeydə alınıb. Dəri əlcək ustalarımız həmin yarışda doqquz nəfərlə təmsil olunmuşdular. Hazırda isə Azərbaycan 10 çəki dərəcəsində təmsil olunacaq. Qadın boksunda yeganə lisenziyanı millimizə Anna Alekseyevna qazandırıb.




## Klublarımızın rəqibləri bəllidir

***İyunun 20-də İsveçrənin Nyon şəhərində UEFA Avropa Liqasının 2016-2017-ci il mövsümü üçün püşkatma mərasimi keçirilib. Avroliqanın ilk təsnifat mərhələsində 96 klub mübarizəyə başlayacaq. Daha yüksək reytinqli 18 komanda isə ikinci təsnifat mərhələsindən yarışa qoşulacaq.***

Avroliqaya püşkatmada Azərbaycan klublarının rəqibləri də məlum olub. "Neftçi" Maltanın "Balzan" klubu, "Qəbələ" isə Gürcüstanın "Samtredia" komandası ilə üz-üzə gələcək. Gəncənin "Kəpəz" komandası isə Kişineunun "Daçia" klubu ilə qarşılaşacaq.

UEFA Avropa Liqasının ilk mərhələsinin oyunları iyunun 30-da və iyulun 7-də, ikinci təsnifat mərhələsinin görüşləri isə iyulun 14-də və 21-də keçiriləcək.

Avropa Liqasının final görüşü gələn il mayın 24-də İsveçin Solna şəhərində keçiriləcək.







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1815